***Ulu öndər Heydər Əliyev Vətənin müdafiəsində silahlı qüvvələrin rolunu yüksək qiymətləndirərək: "Ordu ölkəmizin, millətimizin, dövlətimizin, müstəqilliyimizin dayağıdır!" – deyib. Məhz əsgər və zabitlərimizin canı, qanı bahasına Vətən müharibəsində parlaq qələbəyə imza atmağımız bu fikri bir daha təsdiqləyir.***

# Ordun varsa, yurdun var



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun qələbəsi ilə rəşadət tarixi yazılıb. Bu gün də ölkəmizdə ordu quruculuğu prosesləri hərtərəfli şəkildə davam edir.

Ötən il Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışında iştirak edirdilər. Bildirildi ki, 44 günlük Zəfər yürüşündə ordumuz torpaqlarımızı işğaldan azad etməklə, eyni zamanda, dövlət sərhədinin bərpası kimi çox mühüm bir missiyanı icra edib. Silahlı qüvvələrimizin tərkib hissəsi olan Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti də yüksək peşəkarlıqla düşmənə sarsıdıcı zərbələr endirib və onu torpaqlarımızdan qovub. Vətən müharibəsi dövründə Azərbaycan – İran sərhədi tam bərpa edilib, işğal altında olmuş 132 kilometr sərhəd bərpa edilib. Cənab İlham Əliyev çıxışında Azərbaycan – Ermənistan sərhədinin də əzmlə qorunduğunu vurğuladı: "Bu sərhəd də bərpa edilib və sərhəd boyunca bütün lazımi infrastruktur işləri aparılır, bütün texnika səfərbər edilib. Bu sərhədin uzunluğu 500 kilometrə yaxındır. Bu sərhəd 30 ilə yaxın müddət ərzində işğalçı qüvvələrin əlində idi... Hazırda o ərazilərdə lazımi işlər aparılır".

Sərhəd qoşunlarında xidmət etmiş bir zabit kimi fəxrlə deyə bilərəm ki, hazırkı dövr Azərbaycanın sərhəd mühafizəsi tarixinin şanlı mərhələsinə təsadüf edir. Yeni post və zastavalar yaradılır, ölkənin hüdudlarının toxunulmazlığı təmin olunur. Mühəndis işləri də davam etdirilir, yollar minalardan və qar örtüyündən təmizlənir, həmçinin dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin mövqelərinə yeni təminat yolları çəkilir. Eyni zamanda, əkin sahələrimiz minalardan təmizlənir. Qarabağda bu günədək mühəndis-istehkam bölmələri tərəfindən 14 min hektara qədər ərazi minalardan təmizlənib. Ümumilikdə, 6092 ədəd piyada əleyhinə, 2159 ədəd tank əleyhinə mina və 9012 ədəd partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib. Mühəndis bölmələri orada dislokasiya olunan qoşunların fəaliyyətini təmin etmək, həmçinin infrastrukturun bərpası və digər tapşırıqlar üzrə praktiki bacarıqlarını artırırlar.

Biz daim Vətənin müdafiəsinə hazır olmalıyıq. Bildiyimiz kimi, Ermənistanda baş qaldıran revanşist qüvvələr yenə də Azərbaycana qarşı ittihamlarla çıxış edir, ərazi iddiası irəli sürürlər. Elə bu hərbi quruculuq tədbirləri onlara daha bir xəbərdarlıqdır ki, çirkin əməllərdən əl çəksinlər, yoxsa axırları pis olacaq.

Möhtərəm Prezidentimiz Silahlı Qüvvələr Günü münasibətilə "Gülüstan" sarayında hərbçilərlə görüşündə də bunu qeyd edib: "Ermənistan tam dərk etməlidir ki, biz istənilən hərbi vəzifəni icra edə bilərik və heç kim bizi dayandıra bilməz. Onlar bilməlidirlər ki, "dəmir yumruq" yerindədir".

Dekabrın 24-də, 60 yaşı tamam olan gün Qarabağa, Şuşaya gedən Prezident Hadrut qəsəbəsində hərbi hissənin açılışını etməklə silahlı qüvvələrimizə necə böyük önəm verdiyini bir daha nümayiş etdirdi.

Bu günlərdə Dövlət Sərhəd Xidmətinin hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimləri keçirilib. Sərhədçilərin işğalçılara qarşı mətinliklə döyüşdükləri, dövlət sərhədlərinin toxunulmazlığının, milli maraqlarımızın müdafiəsinin ən yüksək səviyyədə təmin edildiyi bildirilib. Vətənə, dövlətə sədaqət andı içərək, müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərinə götürən əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına əminlik ifadə olunub. Gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçmələri haqlı qürur doğurub.

El məsəlində deyildiyi kimi, ordun varsa, yurdun var. Ordunun gücü hər birimizin daha da ürəkli olması deməkdir. Məhz bu amal naminə yaşamağa, yaratmağa dəyər.

***Hikmət XƏLİLOV,***
***Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan zabiti***

Xalq qəzeti .- 2022.- 20 fevral.- S.2.